


# Tarixi yaddaşın gəyən obrazı

Filologiya elmləri doktoru, professor Qulu Məhərrəmli tanınmış şair Əli Rza Xələflinin yaxın günlərdə nəşr etdirdiyi "Gəyən əfsanəsi" kitabına yazdığı ön sözdə qələm dostunun xarakterindən yarı zarafat, yarı ciddi təbiət hadisəsi kimi bəhs edir. Eyni zamanda vurğulayır ki, Ə.R.Xələflinin yeni kitabı, yəni "Gəyən əfsanəsi" tarixi yaddaşın Gəyən obrazını dolğunluqla ifadə edir. Yeni nəşrə müəllifin 3 poeması - "Gəyəndən əsən yellər", "Gəl gedək yurda sarı", "Ağır xan və Şəkər xatun" əsərləri daxil edilib. Tanıtım xarakterli qeyddə də deyildiyi kimi, "bu əsərlərdə müəllif müraciət etdiyi janrların tələbinə uyğun olaraq, zamanların sintezini yaradır. Düşüncə çevikliyi ilə tarixə üz tutur. Yaşanan hadisə və əhvalatları müasir tarixin ovqatına qovuşdurur".

Ə.R.Xələflinin müəllif yazısının lap əvvəlində yer alan "Cəbrayıla gedirəm keçib həsrət içindən, Elə bil ki, keçirəm keçilməz sədd içindən" misraları bütövlükdə "Gəyən əfsanəsi" kitabının oxucuya aşılayacağı yurd sevgisinin sonsuz, bitib-tükənməz sərhədlərini ortaya qoyur.

*Aynur Əsgərli*
*"Ədəbiyyat qəzeti", №34(5424), 16 sentyabr 2023*

Kredo .- 2023.- 29 sentyabr.- S.16.